# TALEYİMİN ŞƏHƏRİ



Şəhərlər də insanlara bənzəyir: hər birinin öz taleyi, öz ruhu, öz tarixi vardır. Şəhərlər də adamlar kimi öz nizamı, öz quruluşu, öz fəlsəfəsi ilə yaşayır.

Mən Sumqayıtda doğulmuşam və yüzlərlə Sumqayıt sakini kimi mənim də taleyim bu şəhərin taleyilə sıx bağlıdır. 1960-cı ildə təyinatla Sumqayıta göndərilmiş gənclər - valideynlərim (atam - mühəndis-mexanik, anam - müəllim) bir-birini görüb-seçib, ailə qurmuşlar və ömürlərini bütövlükdə doğma şəhərimizə həsr etmişlər. O zaman şəhərimizdə gedən sürətli texnoloji inkişaf anamın peşə seçiminə təsir etmişdir. Odur ki, anam ikinci ixtisas alaraq, kimyaçı-texnoloq kimi əmək fəaliyyətini davam etdirmişdir.

Bacılarımla mən bu şəhərdə təhsil almışıq, peşə seçmişik, dostlar qazanmışıq və öz növbəmizdə şəhərimizə və Vətənimizə ləyaqətli və vətənpərvər övladlar yetişdirmişik. Biz, bu şəhərin tərkib hissəsi olmuş, şəhərimizsə, bizim ən doğma, ən əziz məkanımıza çevrilmişdir.

Şəhərimizi anama bənzədirəm: həmişə şux, yaraşıqlı, ciddi və qayğıkeş anamın bir gün ağaran saçlarını və qırışan əllərini görəndə uşaq kimi kövrəldim və beynimdən ildırım sürətilə bir fikir keçdi: "Mənim anam bəyəm qocala bilər?". Sonra elə uşaq kimi də özümə təsəlli verdim: "Yox, mənim anam həmişə cavan və gözəl qalacaq!". Eyni hissləri şəhərimizin 70 illiyi ərəfəsində də keçirdim və düşündüm ki, bu yubileydən sonra Sumqayıtın "Gənclər şəhəri" statusu dəyişməlidirmi? Tezcə də fikrimdən daşındım: şəhərlər və insanlar eyni həyatı yaşamır axı. Əgər 70-80 yaş insan üçün ahıllıq dövrüdürsə, deməli, şəhər də 70 yaşında öz yeniyetmə çağlarını yaşayır. Axı beşinci əsrdən əvvəl yaranmış Bakının, 800-dən çox yaşı olan Moskvanın, 400 yaşlı Tokionun yanında Sumqayıt yaşlı ola bilməz ki! Mənim Sumqayıtım hələ çox gəncdir. Bu məsələnin başqa bir tərəfi də var: şəhərin əhalisi nə qədər gənc olarsa, o zaman şəhər də "Gənclər şəhəri" statusunu itirməz. Hazırda Sumqayıt gəncliyinin yetkinləşmiş çağlarını yaşayır. Bu gün onun gücü, əzmi, iradəsi birəbeş artmışdır.

Gündən-günə böyüyüb gözəlləşən şəhər sənaye, elm, texnologiya, təhsil və mədəniyyətin müxtəlif sahələrində qazandığı müvəffəqiyyətləri ilə Azərbaycan şəhərləri içərisində özünəməxsusluğu ilə fərqlənir. Onun mühəndisləri, alimləri, idmançıları və tələbələrinin səsi-sorağı ölkəmizin hüdudlarını aşıb-daşır.

Beləliklə, gənclər şəhəri statusunu özünün gənclik təravətilə qoruyub saxlayan Sumqayıtın 70 yaşı tamam olur. İnsan da, hansısa bir şəhər də ad gününü qeyd edəndə xəyallar içində özünün kökünə, tarixinə qayıdır. Təkcə özünün şad günündə deyil, elə yaşadığı şəhərin də yubiley günündə özünə hesabat verir. Bu şəhər nə vaxt və necə yaranıb.

### "Sumqayıt" sözünün mənşəyi: araşdırmalar, mülahizələr

Xəzərin sahilində salınmış bu şəhər qurubyaratmağa qadir olan insan əməyinin, zəhmətinin sayəsinə gözəlləşib şöhrətlənib desək, yanılmarıq. Vaxtilə günəşin hərarətindən cadar-cadar olmuş bu boş düzənlikdə ancaq dəvə karvanları ləpir salarmış. Bu ərazinin adı ilə bağlı xeyli əfsanə mövcuddur. Onların hamısında bir oxşar cəhət var ki, o da bu yerin coğrafi mühiti ilə əlaqədardır. Qızmar günəş altında bu sahildə yaşayan insanların bu həsrəti və "su, qayıt" yalvarışı bu məkanın adının yaranmasına səbəb olmuşdur. Ərazidə yaşayan insanların yeganə su ümidi kiçik bir çay idi. Bu çay çox zaman yay aylarında şiddətli istilərin nəticəsində quruyar, əhalini suya möhtac qoyardı. Aramsız əsən küləklər isə quru çayın yatağına qum səpələyər, buna görə də çay çox zaman məcrasını itirərdi. Böyük ehtimalla, "su, qayıt" ifadəsi təbii fəlakət nəticəsində Xəzərin qumlu sahilində susuz qalan insanların gecə-gündüz çəkdiyi əzabdan yaranmışdır.

Geniş yayılmış digər romantik əfsanəyə görə, "Sum, qayıt" çağırışı sevgilisi Sumu həsrətlə gözləyən Ceyranın vida sözləridir. Güman edilir ki, Ceyranın bu naləsindən "Sumqayıt" sözü yaranmışdır. Bu əfsanə öz poetik ifadəsini Nəbi Xəzrinin "Sumqayıt səhifələri" poemasında da tapmışdır. Sumqayıt haqqında yaranmış romantik əfsanə ilə onun parlaq gələcəyini əlaqələndirən şair bu şəhərə olan ülvi hisslərini belə təsvir edirdi:

*Sumqayıt nə qədər göyə ucalsa,*
*O mənim öz ömrüm, öz həyatımdır.*
*Əgər Azərbaycan bir ümman olsa,*
*Onun bir dalğası Sumqayıtımdır.*

Sumqayıtın tarixini və inkişaf dinamikasını illərcə izləyən tədqiqatçı-alim, universitetimizin ağsaqqal professoru Həsən Sadıxov "Dostluq şəhəri" adlı əsərində bildirir ki, "Sumqayıt" sözünün mənşəyini təkcə xalq əfsanələrində deyil, həm də bu ərazidən keçən İpək yolu ilə karvanları Hindistandan müşayiət edən insanların dilində axtarmaq lazımdır. Alim bildirir ki, XVII-XVIII əsrlərdə Azərbaycanla Hindistan arasında ticarət əlaqələri geniş vüsət almışdır. Yeganə ticarət nəqliyyatı olan karvanları Xəzərin sahili ilə idarə edən hindlilər burada özləri üçün yaşayış evləri, karvansaraylar, dəvələri üçün tövlələr tikərdilər. Hindlilərin Abşeronda tikdirdiyi karvansaraylardan ikisi Sumqayıtın yanından axan çayın qırağında salınıbmış. Tədqiqatçının bildirdiyinə görə, ola bilsin ki, elə o zaman bu yerlərdən keçən dəvələrin qumun üstündəki izlərinə "Sumqayıt" deyilirmiş. Məlum olur ki, hind dilində "sumq" sözü "iz" və ya "rədd", "upt" sözü isə "dəvə" deməkdir. Çox ehtimal ki, uzun illərdən bəri bizə gəlib çatan "Sumqayıt" sözünün ilk variantı elə "Sumqupt" olubmuş.

### Sumqayıt sənayeləşdirmə siyasətinin təcəssümüdür

Keçmiş SSRİ məkanında sənayeləşdirmə siyasətinin nəticəsi olaraq Azərbaycanda da Daşkəsən, Mingəçevir, Sumqayıt kimi yeni sənaye mərkəzlərinin yaradılması qərara alınmışdı.

1935-ci ildə Abşeron yarımadasının ərazisində istilik-elektrik stansiyası və bir neçə ağır sənaye müəssisəsinin yaradılması prosesinin təməli qoyulmuşdur.

Azərbaycanın yeni sənaye mərkəzi üçün Bakının 30-35 km şimalında Sumqayıt ərazisinin seçilməsi təsadüfi deyildi. Əvvəla, Sumqayıt respublikanın paytaxtına yaxın olmalı idi, çünki bu, gənc şəhərin mədəni və iqtisadi yüksəlişi üçün əlverişli şərait yaradırdı. Digər tərəfdən, Bakı-Rostov-Moskva dəmiryol xəttinin, Nasosnı (indiki H.Z.Tağıyev qəsəbəsi) - Bakı su kəmərinin və Xəzər dənizinin yaxında olması şəhərsalma proseslərini xeyli asanlaşdırır və gələcək inkişafına böyük imkanlar yaradırdı.

1941-ci ilin əvvəlində Azərbaycanda ilk olaraq Sumqayıt istilik-elektrik stansiyası işə düşdü və 13 fevral tarixində Bakının neft sənayesini elektrik cərəyanı ilə təmin etdi.

Böyük Vətən müharibəsi sənaye mərkəzinin inşasını dayandırdı. Müharibənin ilk günlərində Sumqayıt ərazisində 223 saylı atıcı diviziya yaradıldı. Qəhrəmanlıq yolu uzun olan bu diviziya hərbi əməliyyatların birində də olsa arxaya çəkilmədi və Bakıdan Praqaya qədər 5000 km irəlilədi. Diviziyanın faşist işğalçılarından azad etdiyi ümumi ərazi 10.000 km$^2$ oldu. Yuqoslaviyanın paytaxtı Belqrad şəhərinin azad olunmasında göstərdiyi şücaətə görə 223 saylı atıcı diviziyası "Belqrad diviziyası" adına layiq görülmüşdü.

Minlərlə həmvətənimiz Böyük Vətən müharibəsi salnaməsinə öz qəhrəman adını yazmışdır. Onların arasında Saray qəsəbəsinin sakini Mikayıl Məmməd oğlu Ələkbərov və Rusiyanın Tambov vilayətindən Sumqayıtın inşasında iştirak etmək üçün gələn Yakov Mixayloviç Sinyov da var. Göstərdiyi cəsarət və şücaətə görə hər iki döyüşçü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür.

Xalqımızın uzun çəkən müharibədə iştirakı Sumqayıt sənaye mərkəzinin tikintisini xeyli ləngitdi. Lakin müharibənin bitməsini gözləmədən Sumqayıtın tikintisini bərpa etmək haqqında qərar qəbul olundu. Odur ki, 1944-cü ilin sonundan şəhərin sürətli inşası və inkişafına başlanılır və "Zakpromstroy" adlı böyük inşaat qurumu yaradılır. Cəbhədə hələ də gərgin döyüşlər gedirdi. Xəzərin sahilində isə gələcək şəhərin təməli qoyulur, sənaye və mülki obyektlərin inşası aparılırdı.

Sumqayıt SSRİ-nin sənaye şəhəri olmaqla yanaşı, bu müharibədə alman faşistləri üçün mühüm strateji mərkəz kimi cəlbedici idi. Araşdırdığımız materiallar arasında Sumqayıtın tarixi ilə bağlı maraqlı bir fakt diqqətimizi çəkdi. Müharibədən dərhal sonra (1945-1949-cu illərdə) nasist Almaniyası və II Dünya müharibəsində insanlığa qarşı qəddarlıq göstərənlərin üzərində Nürnberq məhkəmə prosesi təşkil olunmuşdu. Həmin prosesdə araşdırılan sənədlərin birində belə bir yazı üzə çıxır: "Bakı şəhərinin yaxınlığında olan Sumqayıtda yerləşən SK-5 zavodu. Direktoru-Hayo Eylers". Sən demə, Hitlerin "Barbarossa" planında işğal zamanı bütün xırdalıqlar nəzərə alınmışdır: strateji müəssisələrin ələ keçirilməsi, onların istismarından gələn faizin bölüşdürülməsi, fəhlələrin əmək haqqının təyin edilməsi və s. Hətta bu zavodlara rəhbərlik etmək məqsədilə əvvəlcədən alman direktorlar da təyin olunmuşdu.

Beləliklə, Sumqayıtın təməlinin qoyulması, sənaye və mülki obyektlərin tikilməsi keçmiş SSRİ-nin bütün bölgələrindən gələn insanların dəstəyi və köməyi nəticəsində baş tutmuşdu. İlk çağırışda bu ölkə miqyaslı tikinti meydançasına 3.000-dən çox gənc oğlan və qız gəlmişdi. İlk illərdə Sumqayıtın ancaq sənaye müəssisələrində on min insan çalışırdı. Bakı şəhərinin "peyki" adlandırılan bu şəhər tezliklə müstəqil şəhər adını qazandı. Azərbaycan Respublikası Ali Sovetinin 21 noyabr 1949-cu il sərəncamı ilə Bakı şəhərinin Sumqayıt rayonunun statusu ləğv olunaraq, Sumqayıt şəhəri yaradılmışdır.

Bu gün həyatımızı, taleyimizi, dünyamızı Sumqayıtsız təsəvvür etmək çətindir. Təsadüfi deyil ki, Nəbi Xəzri "Sumqayıt səhifələrində" yazırdı:

*Sumqayıt, əzizim, gözlərin aydın,*
*Sənin hər addımın böyük hünərdi.*
*Deyirəm, bəlkə də sən olmasaydın,*
*Yer üzü nə qədər boş görünərdi.*

Sumqayıtın sənayeləşdirilməsi sonrakı illərdə də həyata keçirilirdi. Bu prosesdə çox dəyişikliklər baş vermişdi, o cümlədən sovet dövrünün yüksəlişləri, postsovet böhranı, müstəqil Azərbaycanda müdrik siyasətin nəticəsində balanslaşdırılmış və dayanıqlı iqtisadiyyatın yaradılması və onun ağır və yüngül sənaye, aqrotəsərrüfat, müasir texnologiyalar və elektron idarəetmə sahələri vasitəsilə möhkəmləndirilməsi. İqtisadiyyat şəhərin simasını müəyyənləşdirir, mənəvi mühit isə onun xarakterini formalaşdırır. Kimyaçılar, metallurqlar və energetiklər şəhəri kimi tanınan Sumqayıt şəhərində bu gün sənayenin innovativ sahələri də geniş vüsət almışdır. Onların sırasında cihazqayırma, inşaat materiallarının istehsalı, neftayırma və neft məhsullarının təsərrüfatda və məişətdə istifadəsi ilə bağlı istehsalatlar bu gün Sumqayıtın adını hər yerdə tanıdır.

Müstəqil Azərbaycanın qarşısında bu gün yeni tələblər və məqsədlər durur: neft kapitalını insan kapitalına çevirmək, insanların rifahını yaxşılaşdırmaq, onları işlə və evlə təmin etmək, keyfiyyətli tibbi xidmət, istirahət və əyləncəsini təmin etmək, Sumqayıt gənclərinin təhsili və peşə inkişafı üçün şərait yaratmaq, ahıl insanların həyat təminatını yaxşılaşdırmaq və s.

Bu yerdə Sumqayıt şəhərində həyata keçirilən təhsil proqramları haqqında danışmaq yerinə düşərdi. Sumqayıtın təhsil sahəsində illər boyu çalışan bir insan kimi şəhərimizin təhsil işçiləri, şagird və tələbələri ilə fəxr edirəm. Hələ 1980-ci illərdən başlayaraq Sumqayıt şagirdləri Azərbaycanda ali təhsil müəssisələrinə qəbul nəticələrinə görə ilk sıralarda olublar. Bu gün də həmin ənənə davam etməkdədir.

Təhsil sahəsində digər fəxarət yerimiz 20 ildən çox çalışdığım Sumqayıt Dövlət Universitetidir. Növbəti illərdə 60 illiyini qeyd edəcəyimiz universitetimiz Sumqayıtla, deməli olar ki, eyni amalla, eyni niyyətlə yaradılmışdır və onunla çiyin-çiyinə addımlayır. Sumqayıtın kimya və metallurgiya sahələri üçün ali təhsilli mühəndis kadrlarının hazırlanması bu təhsil ocağında, demək olar ki, onilliklər ərzində böyük əzmkarlıqla və ləyaqətlə yerinə yetirilməkdədir. Bu gün də auditoriyalarda və mühazirə zallarında tələbələr bu təhsil ocağının təməlində duran prof. Həsən Sadıxovun, prof. Dursun Aşurovun, prof. Məhəmməd Əhmədovun, prof. Ramazan Məmmədovun, dos. Rəna Daşovanın, dos. Vaqif Səttarovun, dos. Mələhət Pənahəliyevanın, dos. Albert Tağıyevin, dos. Qorxmaz Bayramovun, dos. Şəmsəddin Tarverdiyevin, dos. Telman Quliyevin, dos. Həsən Sarıyevin, dos. Kamal Orucovun, dos. Kamal Rüstəmovun və onlarca digər müəllimlərin mühazirələrini həvəslə dinləyirlər. Çox təəssüf ki, prof. Nadir Kazımov və AMEA-nın müxbir üzvü, prof. Firidun Məmmədov artıq aramızda yoxdur. Amma universitetimizin kollektivi dünyasını dəyişmiş dəyərli alim və müəllimlərimizi unutmur, onların adı iş otağının qarşısında fəxri lövhədə yaşadılır.

Bu gün qürurla deyə bilərik ki, universitetin 7 fakültəsində işləyən professor-müəllim heyəti əsasən vaxtilə bu təhsil ocağını bitirən məzunlardır. Hazırda onlardan dos. Natiq Talıbov, dos. Ulduz Ağayev, dos. Aynurə Yəhyayeva, dos. Mahal Muradov, dos. Tamella Əhmədova, dos. Turqay Hüseynov, dos. Naib Hacıyev, dos. Ramiz Hüseynov və başqaları universitetin müxtəlif qurumlarına rəhbərlik edir, təhsil ocağımızı Azərbaycanda və xaricdə təmsil edirlər.

Bu gün universitetimiz ölkəmiz və şəhərimiz kimi öz intibah dövrünü yaşayır. Burada da tikinti-abadlıq işləri böyük həvəslə aparılır. Dövlətin təhsil strategiyasına uyğun olaraq davamlı təhsil sistemi istər tədris və elm sahələrində, istərsə də maddi-texniki bazanın möhkəmləndirilməsində uğurla həyata keçirilir. Sevindirici haldır ki, yalnız 2019-cu ilin yay ayları dövründə universitetimizin ikinci binasının siması əsas binanın dizaynına uyğun olaraq tam dəyişdirilmiş və şəhərimizin ümumi görünüşünə müasirlik gətirmişdir; universitetimizin maddi-texniki bazası dünya standartlarına cavab verən ən müasir tədris və eksperimental laboratoriyalarla təchiz olunmuşdur. 2019-2020-ci tədris ilində bu dəyişikliklər tələbə-valideyn və müəllim heyətini çox sevindirmişdir.

Bu və digər çoxsaylı tədbirlər 2014-cü ildən SDU-ya rəhbərlik edən prof. Elxan Hüseynov tərəfindən uğurla həyata keçirilir. Əsl təhsil fədaisi, işini, peşəsini və kollektivimizi böyük məhəbbətlə sevən bu insanın planları və ideyaları çoxdur, insanları işə həvəsləndirmək və yeni layihələri həyata keçirmək iradəsi isə tükənmir. Rektorumuzun təşəbbüslərinə məsuliyyətlə qoşulan bütün kollektivimiz universitetimizi müxtəlif beynəlxalq konfranslarda və seminarlarda, ölkə və dünya səviyyəli tədbirlərdə, beynəlxalq layihələrdə layiqincə təmsil edir, universitetimizin və şəhərimizin adını uca tutmağa çalışır.

Sumqayıt Dövlət Universiteti Sumqayıt şəhəri üçün yaradılmışdır və fəaliyyət göstərdiyi onilliklər boyu bu şəhərlə vəhdət təşkil edərək onun təhsil və elm ocağına çevrilmişdir. Hazırda bu birlik əvvəlki illərdən də artıq güclənmişdir. Birlik olan yerdə məlumdur ki, dirilik olar, inkişaf olar. Birlikdən, hünərdən, inkişafdan danışarkən şair Tofiq Məmmədin Sumqayıta həsr elədiyi şeirdən bir bəndi xatırlayıram. Bu misraları həm şəhərimizə, həm də universitetimizə şamil etmək olar:

*Məndən hünər istə, məndən iş istə,*
*Gör nələr, gör nələr yaratmışam mən!*
*Sumqayıt böyüyüb əllərim üstə,*
*Onunla birlikdə boy atmışam mən!*

Sumqayıtın hərtərəfli inkişafı ölkəmizin tərəqqisi deməkdir. Dövlətimizin bu inkişafı təmin etmək üçün həyata keçirdiyi tədbirlər Azərbaycanımızı yüksək uğurlara imza atmağa sövq edir.

Sumqayıtın tarixindən danışarkən bu inkişafda müstəsna yeri olan ümummilli liderimiz Heydər Əliyevin rolunu xüsusi qeyd etmək lazımdır. Sumqayıtın əldə etdiyi bütün uğurlarda onun təşəbbüsü və böyük zəhməti vardır. 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər təyin olunanda, Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri fəaliyyət göstərirdi. Bir il sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə yüngül sənaye müəssisələri - Üst Trikotaj və Xovlu İplik fabrikləri tikilib istifadəyə verildi. Eyni zamanda, sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi.

Ulu öndər Sumqayıta hər gəlişində sumqayıtlıların qarşısında çıxış edir, onlara öz tövsiyələrini verir, xarici qonaqları da bura cəlb edir. Məsələn, 2 iyun 1996-cı il tarixindəki səfərində Heydər Əliyev BMT-nin İnkişaf Proqramı tərəfindən hazırlanmış "Azərbaycan Respublikasında insanın inkişafı haqqında hesabat" kitabının təqdimat mərasimində iştirak və çıxış etmişdir. Təqdimat mərasiminə BMT İnkişaf Proqramının rəhbəri Ceyms Spet, Azərbaycan Respublikasında BMT-nin rezidenti Paolo Lembo və digər rəsmi şəxslər də gəlmişlər.

34 il ərzində ulu öndərin 16 dəfə Sumqayıta gəlməsi, gənclik şəhərinə, onun inkişafına və insanlarına olan məhəbbəti və hörmətinin təzahürüdür. Zəhmətkeş insanların əməyinə, əzmkarlığına və sədaliyinə rəğmən bu böyük şəxsiyyət onlara xüsusi səmimiyyətlə və mehribanlıqla yanaşırdı. 1981-ci il gəlişində o, "Sumqayıt qəhrəmanlar, gözəl insanlar şəhəridir. Sumqayıt sizin şəhərinizdir. Siz Azərbaycanın sənayesini, mədəniyyətini, ölkəmizin həyatını burada inkişaf etdirirsiniz. Siz gözəl insanlarsınız. Sizin hər birinizə baxdıqda ürəyim dağa dönür, sevinirəm. Burada yaşayanların yaşlısı da, cavanı da, körpəsi, uşağı da, qadını, kişisi də - hamısı gözəldir, qəhrəmandır, cəsarətlidir", demişdi...

Heydər Əliyev məktəbinin davamçısı, onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də bu ənənəyə sadiq qalaraq, Sumqayıtı daim nəzərində saxlayır, onun sakinlərini və görülən işləri dəstəkləyir. Bunu son illər Sumqayıtda yeni inkişaf intensivliyi ilə aparılan tikinti-abadlaşdırma işlərinin görülməsində, müasir texnologiyaların şəhərə gətirilməsində görürük. Şəhərə icra başçısı Zakir Fərəcovun təyin olunması da bu siyasətin regionlarda həyata keçirilməsinin canlı təcəssümüdür. Z.Fərəcov şəhərimizin əsl simasını özünə qaytardı: illər boyu üst-üstə tikilmiş artıq tikililər söküldü, Sumqayıtın geniş, təmiz, səliqəli küçələri əvvəlki nizamına qayıtdı. Küçə mədəniyyəti, nəqliyyat mədəniyyəti, ticarət mədəniyyəti yaxşılığa doğru xeyli dəyişdi. Baxımsız olan dəniz sahili gözəl istirahət zonasına çevrildi. Doğrudan da, 80-ci illərdə "Ölü şəhər" kimi ad qazanmış Sumqayıtdan əsər-ələmət qalmadı.

70 il bundan qabaq tikilən Sumqayıt, bu gün də eyni şövqlə, eyni ehtirasla "Xəzərin incisi", "Xəzərin sahilində səhra çiçəyi" adlandırıla bilər. Deyirlər, insan nə valideynlərini, nə də Vətənini özü seçir. Bu, taleyin yazısıdır. Nə xoşbəxtəm ki, qismətimə gözəl valideynlər, sevimli vətənim Azərbaycan və onun övladlarından olan belə gözəl bir şəhər düşübdür. Əzəmətli, füsunkar bir şəhər: Taleyimin şəhəri Sumqayıt...

**Nigar İSGƏNDƏROVA,**
**filologiya üzrə elmlər doktoru, professor,**
**Sumqayıt Dövlət Universitetinin**
**xarici dillər kafedrasının müdiri.**